**AMEA RMİ-nin "Funksiyalar nəzəriyyəsi" şöbəsinin 2016-cı il üçün elmi və elmi təşkilati fəaliyyəti haqqında**

**H E S A B A T I**

Hesabat dövründə «Çoxdəyişənli funksiyaların ridge funksiyalar, neyron şəbəkələr, xətti və qeyri-xətti superpozisiyalarla yaxınlaşması, funksional fəzalar üçün daxilolma teoremləri» mövzuları üzrə 4 icraçını birləşdirən 4 iş iş yerinə yetirilmişdir. Hesabat ilində 11 məqalə (onlardan 5-i Thomson Reuters bazasına daxildir) çapdan çıxmışdır. Bundan əlavə 6 məqalə çapa qəbul edilmişdir.

Hesabat dövründə şöbə müdiri r.e.d. Vüqar İsmayılov, şöbənin aparıcı elmi işçisi prof. Alik Nəcəfov və böyük elmi işçisi f.r.e.n. Rəşid Əliyev ümuminstitut seminarında çıxışlar etmişlər. Şöbə əməkdaşları şöbə seminarlarında ardıcıl olaraq çıxışlar edirlər.

Şöbə müdiri r.e.d. Vüqar İsmayılov 24.01.2016-28.01.2016 tarixlərində Türkiyənin İstanbul şəhərində yerləşən İstanbul Ticarət Universitetində elmi ezamiyyətdə olmuşdur. Ezamiyyət vaxtı İstanbul Ticarət Universiteti, riyaziyyat fakültəsinin professoru Ekrem Savaşla şöbənin elmi istiqamətləri ətrafında geniş müzakirələr aparılmışdır.

Elmin İnkişafı Fondunun "Çoxdəyişənli funksiyaların ridge funksiyalarla göstərilməsi" mövzusunda EIF-2013-9(15)-46/11/1 nömrəli qrant layihəsinin icrası fevral ayında müvəffəqiyyətlə başa çatmışdır.

19 fevral 2016-cı il tarixində şöbənin əməkdaşı Aygün Orucova "Ümumiləşmiş Besov-Morri tipli fəzalarda daxilolma teoremləri" mövzusunda riyaziyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir.

**Şöbə müdiri** **r.e.d. Vüqar İsmayılov**